**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TURİZM SƏNAYESİNİN İNNOVASİYALI İNKİŞAF MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01 – “Sahə iqtisadiyyatı”

Elmi sahəsi: İqtisad elmləri

İddiaçı: **Vüsal Vüqar oğlu Cəfərli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Bakı Avrasiya Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad üzrə elmlər doktoru, professor
**Qəzənfər Salman oğlu Süleymanov**

Rəsmi opponentlər: iqtisad üzrə elmlər doktoru
**Anar Əli oğlu Əzizov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Müşfiqə Əjdər qızı Məmmədova**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Fuad Zeydulla oğlu Cabbarov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurası.

Birgə Dissertasiya şurasının sədri:
AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi:
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri:
iqtisad elmləri doktoru, professor,
Əməkdar kənd təsərrüfatı işçisi
**İslam Hacı oğlu İbrahimov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Turizm milli və regional sosial-iqtisadi inkişafın əhəmiyyətli amillərindən və mühüm fəaliyyət növlərindən biridir. Son illər getdikcə daha kütləvi xarakter alan, cəmiyyətdə ictimai rifahın və həyat keyfiyyətinin yaxşılaşması və milli mədəniyyətin daşıyıcısı olan fəaliyyət sahəsi kimi səciyyələndirilən turizm, həm də mədəni-mənəvi dəyərlərin və normaların mübadiləsində mühüm rol oynayır. Turizm öz sinergetik xarakteri və təsir gücü sayəsində milli iqtisadi sistemin müxtəlif sahələri və istiqamətləri arasında inteqrasiyanın sürətlənməsində müstəsna əhəmiyyətli fəaliyyət sahələrindən biri kimi tanınır. Bu xüsusiyyəti turizm fəaliyyətinin daha da genişlənərək milli iqtisadiyyatın altsistemlərindən biri kimi, ayrıca sənaye sahəsi kimi formalaşmasına zəmin yaradır.

Turizm sənayesi anlayışı XX əsrin ikinci yarısından sonra bu sahənin daha sürətli inkişafı və geniş insan kütləsini əhatə etməsi ilə bağlı işlənməyə başlamışdır. Xüsusilə, XX əsrin 70-ci illərindən sonra turizm məhsulu və xidmətlərinin sənaye üsulu ilə istehsalı prosesinin genişlənməsi, bu anlayışın iqtisadi ədəbiyyatda və turizm tədqiqatlarında turizmin bir fəaliyyət sahəsi kimi təşkili və idarə edilməsində mütəmadi istifadə edilməsini şərtləndirdi. Turizm sənayesi anlayışının formalaşması bu sahənin kütləvi xarakter almasının nəticəsi olaraq bir çox digər iqtisadi fəaliyyət növlərinin, istehsal sahələrinin, təsərrüfat fəaliyyəti istiqamətlərinin turizm xidmətləri və məhsulları istehsalı prosesində iştirakının genişlənməsi ilə, müxtəlif turizm məhsulu və xidmətləri komponentlərinin istehsalında fəal şəkildə iştirakı ilə də bağlıdır. Nəzərə alsaq ki, turizmin inkişafının və kütləviləşməsinin nəticəsi olaraq turizm bazarında məhsul və xidmətlərə tələbin səviyyəsi durmadan artır. Bu tələbin ödənməsi digər fəaliyyət sahələrinin də turizm prosesində iştirak səviyyəsinin artırılmasını tələb edir, onda çoxtərəfli fəaliyyət kimi bu prosesi həyata keçirən sahələrin məcmu şəkildə turizm sənayesi kimi adlandırılmasını məntiqi hesab etmək olar.

Turizm sənayesi ayrıca götürülmüş turizm fəaliyyətinin yox, digər fəaliyyət sahələri ilə vəhdətdə mövcud olmasının nəticəsi kimi də

qəbul edilə bilər. Turizmin inkişafı, bu sahədə iqtisadi artımın səviyyəsini yüksəltməklə yanaşı, digər sahələrin də turizm məhsulu və xidmətlərinin istehsalı prosesinə cəlb edilməsini şərtləndirir və həmin sahələrin inkişafına da təkan verir.

Turizm fəaliyyətinin bir sənaye sahəsi kimi formalaşmasına, sürətlə inkişaf etməsinə baxmayaraq, istehlakçıların, yəni turist və ekskursantların zövq və istəklərinin, tələbatlarının ciddi dəyişməsi, bu sahənin inkişafında yeni meyillərin yaranmasını, turizm məhsulu və xidmətləri istehsalının xarakterinin dəyişdirilməsini, xidmətlərin istehsal şərtlərinin və meyarlarının, istehlak mühitinin müasir çağırışlara uyğunlaşdırılmasının vacibliyinin diqqətə çatdırılmasını, perspektiv fəaliyyətdə nəzərə alınmasını şərtləndirir.

Turizmin fəaliyyət sahəsi kimi sadaladığımız xüsusiyyətlərini, inkişafının sosial-iqtisadi əhəmiyyətini, ölkənin ümumi inkişafında və qlobal iqtisadi, sosial-mədəni sistemlərə inteqrasiyasında rolunu nəzərə alaraq, ölkəmizdə bu sahənin müasir yanaşmalar əsasında tərəqqisinə xüsusi diqqət yetirilir və bu istiqamətdə sistemli tədbirlər həyata keçirilir. Ölkəmizdə rəqabət qabiliyyətli turizm sənayesinin davamlı inkişafına nail olmaq məqsədilə həyata keçirilən tədbirlədən milli xüsusiyyətəri və turizm potensialını, qonaqpərvərlik ənənələrini, ölkəmizin geostrateji mövqeyini və s. vacib amilləri nəzərə almaqla formalaşdırılmış normativ-hüquqi sənədləri, müəyyən illəri əhatə edən turizmin inkişaf proqramlarını, 2011-ci ilin "Turizm ili" kimi elan olunmasını, regionların sosial-iqtisadi inkişaf dövlət proqramlarında, yol xəritələrində, konsepsiyalarda, strateji planlarda və s. sənədlərdə turizmin inkişafının ön plana çəkilməsini nəzərdə tutan digərlərini qeyd etmək olar.

Milli turizm sənayesinin inkişafına diqqətin artırılmasına yaranan obyektiv zərurət həm də milli iqtisadiyyatda xüsusi çəkisi yüksək olan neft-qaz sənayesi məhsullarınanın qiymətinin dünya bazarında tez-tez dəyişməsi, 2015-2016-cı illərdə baş verən ardıcıl devalvasiya prosesləri müstəvisində öz təsdiqini tapmışdır. Beləki, neft ixracından asılılığın azaldılması, onun hesabına əldə olunan valyuta daxilolmalarının kompensasiyası üçün qeyri-neft sənayesinin, o cümlədən turizm sənayesinin inkişafı, mühüm istiqamətlərdən biri kimi dəyərləndirilmişdir.

Azərbaycandau milli turizm sahəsinin inkişaf etdirilməsi qeyri-neft iqtisadiyyatının davamlı inkişafının prioritet istiqamətlərindən biri kimi qəbul edilmişdir. Son illərdə ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, qəbul edilən dövlət proqramları, müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi bunu bir daha sübut edir. 2016-cı ildə qəbul edilmiş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində” nəzrərdə tutulan hədəflər, işğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı konsepsiyalarının və strategiyalarının hazırlanmasına start verilməsi buna əyani sübutdur. Mövcud imkan və ehtiyatlardan səmərəli istifadə etməklə, Azərbaycanın 2025-ci ilədək regionun və digər ölkələr arasında ən heyranedici turizm ölkələrindən birinə çevrilməsi nəzərdə tutulur. Perspektivdə, yəni 2025-ci ildən sonrakı dövrdə isə mövcud turizm ehtiyatlarından innovasiyalı texnologiyaların tətbiqi yolu ilə istifadə edərək Azərbaycanı dünyanın 20 ən tanınmış turizm məkanından birinə çevirmək başlıca məqsəd kimi qarşıya qoyulmuşdur.

Bu məqsədlərə nail olmaq üçün turizm sənayesində yeni, fərqli xüsusiyyətlərə və yüksək keyfiyyətə malik, rəqabət qabiliyyətli turizm məhsul və xidmətlərinin istehsalı və qlobal turizm bazarına təklif edilməsi, turizm fəaliyyəti ilə məşğul olan subyektlər qarşısında duran əsas vəzifələrdən biri olmalıdır.

Turizm sənayesi sahələrində davamlı inkişafın təmini məqsədilə diqqət edilən müasir çağırışlar kontekstində turizm məhsulları və xidmətlərinin istehsalı və istehlakı prosesində innovasiyalı texnologiyaların tətbiqinin mühüm əhəmiyyətini nəzərə alaraq, ölkəmizdə qəbul edilən dövlət proqramlarında bu məsələyə xüsusi əhəmiyyət verilir. Müasir tələblərə müvafiq milli turizm sənayesinin formalaşdırılması istiqamətində perspektivdə reallaşdırılması nəzərdə tutulan tədbirlərdə də innovasiya imkanlarından və innovasiya potensialından istifadə prioritetləşdirilir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də turizmin inkişafına nail olmağın konseptual əsaslarında innovasiyalı yanaşmalar, mərkəzi yerlərdən birini tutur. Göstərmək olar ki, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılması nəzərdə tutulan Milli Prioritetlərin (dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik,

inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi) hər biri turizm sənayesinin inkişaf strategiyası ilə sıx bağlıdır. Ona görə innovasiyalı inkişaf modellərinin tətbiqinə nail olmaqla milli turizm sənayesinin dayanıqlı inkişafı mühüm vəzifə kimi qarşıya qoyulmalıdır. Nəzərə almaq lazımdır ki, innovasiyalı yanaşmalar turizmin davamlı və dayanıqlı inkişafına təminat verməklə yanaşı, ətraf mühitin qorunması və ekoloji tarazlığın yaranmasına, regionların, işğaldan azad olunmuş ərazilərin, bütövlükdə ölkəmizin təbii-iqtisadi və turizm potensialından səmərəli istifadə olunmasına, milli turizm sənayesinin qlobal turizm sənayesi sisteminə uğurlu inteqrasiyasına və dünya turizm bazarında öz layiqli yerini tutmasına zəmin yaradacaq. Göstərilən məqsədlərə nail olmaq, milli turizm sənayesinin inkişafını təmin etmək üçün turizm sənayesində yeni, fərqli xüsusiyyətlərə və yüksək keyfiyyətə malik, rəqabət qabiliyyətli turizm məhsul və xidmətlərinin istehsalı və qlobal turizm bazarına təklif edilməsi, turizm fəaliyyəti ilə məşğul olan subyektlər qarşısında duran əsas vəzifələrdən biri olmalıdır.

Eyni zamanda 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərin turizm potensialının səmərəli istifadə edilməsi, bu ərazilərdə turizmin müasir standartlar səviyyəsində təşkili və inkişafında innovasiyalı yanaşmalar üstünlük təşkil etməlidir. İşğaldan azad edilmiş ərazilərdə yaradılan "ağıllı" yaşayış məskənlərində turizmin innovasiyalı inkişafına zəmin yaradan infrastruktur sahələrinin yaranması və "ağıllı" konsepsiyalar ilə uyğunlaşdırılması turizm sənayesinin innovasyalı inkişafının istiqamətlərindən biri kimi nəzərə alınır.

Turizmin inkişafının müxtəlif aspektləri tədqiqatçıların daim diqqət mərkəzində olmuş və bu tədqiqatlar müasir dövrdə də davam etdirilməkdədir. Turizm sənayesinin müasir inkişaf meyilləri sırasında innovasiyalı yanaşmaların daha aktual olmasını qeyd etdik. Bu sahədə həm azərbaycanlı, həm də xarici tədqiqatçılar müəyyən araşdırmalar aparmışlar. Qeyd edək ki, turizm sənayesinin innovasiyalı inkişafı sahəsində bir çox xarici alimlərin tədqiqatları geniş dövrü əhatə etsə də, Azərbaycanda milli turizm sənayesinin

formalaşması və inkişafı ilə bağlı tədqiqatların aparılması əsasən müstəqilliyin əldə olunmasından sonrakı dövrə təsadüf edir.

Turizm fəaliyyətinin, turizm sənayesinin müxtəlif problemlərinə, o cümlədən turizmin iqtisadiyyatı, idarə edilməsi, inkişaf tarixi, turizmin müxtəlif növlərinin inkişaf perspektivləri, turizm potensialının səmərəli istifadə istiqamətləri, regional turizm komplekslərinin inkişaf strategiyasının formalaşdırılması, müasir rəqəmsallaşma dövrünün tələblərinə uyğun olaraq turizm sənayesinin innovasiyalı inkişaf istiqamətləri üzrə ölkəmizin tanınmış iqtisadçı alimlərindən Z.Ə.Səmədzadənin, A.N.Həsənovun, A.Ə.Əzizovun, B.Ə.Bilalovun, Ə.Q.Əlirzayevin, Ə.X.Cabbarovun, İ.H.İbrahimovun, P.Ə.Həsənovanın, M.M.Hüseynovun, C.M.Məmmədovun, A.A.Hüseynin, H.B.Soltanovanın, S.H.Rəhimovun, N.C.Qafarovun və başqalarının tədqiqatları xüsusi maraq doğurur.

Xarici ölkələrin alim və tədqiqatçılarından Cansu U., Cüneyt M., Elçi Ş., Hjalager A., Larajaa M., Sardak S., Cooper R., D’Arcy D., Aleksandrova A.Y., Kokurin D.İ., Malaxova N.N., Novikov V.S., Frolova T.A., Şirykalova T.V. və b. turizm sənayesinin innovasiyalı inkişafı məsələlərinə xüsusi yer vermişlər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti Azərbaycan Respublikasında turizm sənayesi müəssisələridir. Tədqiqatın predmeti isə ölkədə və regionlarda turizm sənayesi sahələrində innovasiyalı inkişaf mexanizmlərinin təkmilləşdirilməsinin təşkilati-iqtisadi məsələləri, üsul və vasitələridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi Azərbaycan Respublikasında turizm sənayesində innovasiyalı inkişafın nəzəri məsələlərini araşdırmaq, turizm sənayesinin innovasiyalı inkişafının təhlil edilməsi və qiymətləndirilməsi, innovasiyalı inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərinə dair təklif və tövsiyələrin hazırlanmasıdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- turizm sənayesində innovasiyalı texnologiyalar əsasında inkişafın mahiyyəti və xüsusiyyətlərini təhlil edərək dəqiqləşdirmək;
- fəaliyyət sahələrində tətbiq edilən innovasiyaların növləri, qruplarını sistemləşdirmək və innovasiyaların işlənməsinə

zəmin yaradan amilləri müəyyən etmək;

- Azərbaycanda turizmin sənayesinin ümumi inkişaf xüsusiyyətlərini təhlil edərək real vəziyyətini qiymətləndirmək;
- turizm sənayesinin inkişafında innovasiya texnologiyalarının rolunu müəyyən etmək və tətbiq olunan innovasiya modellərini səciyyələndirmək;
- turizm sənayesində innovasiyalı inkişafın prinsipləri və spesifik xüsusiyyətlərini müəyyən etmək;
- turizm sənayesinin innovasiyalı inkişafı strategiyasının formalaşdırılması prinsiplərini əsaslandırmaq;
- Azərbaycanda turizm sənayesinin innovasiyalı inkişafına zəmin yaradan amilləri qiymətləndirmək;
- turizm sənayesində innovasiyalı inkişaf texnologiyalarının tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək.

**Tədqiqat metodları.** Tədqiqat işinin yerinə yetirilməsi zamanı təhlil, müqayisə, qruplaşdırma, sistemli yanaşma, iqtisadi statistik metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı müddəlar çıxarılmışdır:

- milli iqtisadiyyatın inkişafı ilə əlaqədar turizm sənayesinin struktur elementlərinin sistemləşdirilməsi və dəqiqləşdirilməsinə ehtiyac var;
- qlobal turizm sənayesində inkişaf meyillərini nəzərə alaraq milli turizm sənayesinin innovasiyalı inkişaf səviyyəsinin təhlili zəruridir;
- milli turizm sənayesində innovasiyalı inkişafın mövcud vəziyyətinin qiymətləndirilməsinə sistemli yanaşma müəyyən edilməlidir;
- ümumi innovasiya fəaliyyətində tətbiq edilən daha səmərəli modellərin turizmdə istifadə imkanları araşdırılmalıdır;
- Azərbaycanda turizm sənayesinin inkişafının sürətləndirilməsində innovasiyalı fəaliyyətin rolunun artırılmasının qiymətləndirilməsi, elmi baxımdan əsaslandırılması zərurəti meydana çıxmışdır;

- turizm sənayesinin yeni inkişaf strategiyasının formalaşdırılması gündəlikdə duran vacib məsələdir;
- Azərbaycanda turizm sənayesinin innovasiyalı inkişafı perspektivlərinin müəyyənləşdirilməsi və inkişaf mexanizmlərinin təkmilləşdirilməsinin zəruriliyi artmış və bu istiqamətdə təkliflər hazırlanmasına ehtiyac vardır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- turizm sənayesi anlayışının mahiyyəti, formalaşmasını şərtləndirən amillər, inkişaf mərhələləri ümumiləşdirilmiş, struktur elementləri dəqiqləşdirilmiş, əsas və əlavə xidmətlər istehsal edən sahələr səciyyələndirilmiş və qruplaşdırılmışdır;
- "innovasiya" anlayışına nəzəri-metodoloji baxışlar təhlil edilərək sistemləşdirilmiş, turizm sənayesində innovasiyalı texnologiyalar əsasında inkişafın mahiyyəti və xüsusiyyətləri müəyyən edilmiş və dəqiqləşdirilmişdir;
- turizm sənayesində və müxtəlif fəaliyyət sahələrində istifadə olunan innovasiyalar təsnifləşdirilərək növləri, qrupları dəqiqləşdirilmiş və innovasiyaların işlənməsinə zəmin yaradan amillər və tətbiqi şərtləri müəyyən edilmişdir;
- Azərbaycanda turizmin sənayesinin ümumi inkişaf xüsusiyyətləri, inkişaf meyilləri və innovasiyalı inkişafı istiqamətində həyata keçirilən tədbirlər təhlil edilmiş və qiymətləndirilmişdir;
- rəqabətqabiliyyətli turizm sənayesinin formalaşdırılması və inkişafında innovasiya texnologiyalarının rolu müəyyən edilmiş, əhəmiyyəti əsaslandırılmış və bu sahədə tətbiq edilən innovasiya modelləri səciyyələndirilərək, ölkəmizdə tətbiqi istiqamətləri göstərilmişdir;
- turizm sənayesində innovasiyalı inkişafın prinsipləri, müxtəlif xidmətər istehsal edən sahələrdə innovasiya fəaliyyətinin spesifik xüsusiyyətləri və təşkili prinsipləri müəyyən edilmiş, reallaşdırılma mexanizmləri təklif edilmişdir;
- Azərbaycanda turizm sənayesi sahələrinin innovasiyalı inkişafına zəmin yaradan imkanlar, potensial amillər qiymətləndirilmiş və bu amillərin səmərəli istifadə yolları və

mexanizmləri təklif edilmişdir;

- turizm sənayesində aktuallığı ilə seçilən artırılmış reallıq (AR), virtual reallıq (VR), qarışıq reallıq (MR), kvest innovativ texnologiyalarının işlənməsinin əhəmiyyəti əsaslandırılmış, tətbiqinin mexanizmlərinin səmərəliliyinin artırılmasının təkmilləşdirilməsi istiqamətlərini müəyyən edilmişdir**.**

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin yerinə yetirilməsi zamanı əldə olunan ümumiləşdirilmiş nəzəri müddəalardan və irəli sürülmüş praktiki əhəmiyyətli təklif və tövsiyyələrdən, əsaslandırılmış nəticədən turizm sənayesinin innovasiyalı inkişafında istifadə edilə bilər.

Eyni zamanda bu təklif və tövsiyələrdən ölkədə turizm sənayesinin innovasiyalı inkişaf strategiyasının işlənilməsində və reallaşdırılmasında, qlobal turizm bazarının konyunkturuna, inkişaf meyillərinə və tələblərinə uyğun olaraq turizm sənayesi sahələrinin və müəssisələrinin inovasiyalı inkişaf mexanizmlərinin formalaşdırılması və təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsində və inovasiyalı inkişaf mexanizmlərinin təkmilləşdirilməsi tədbirlərinin reallaşdırılmasında, müxtəlif səviyyəli turizm müəssisələrinin fəaliyyətində innovasiya texnologiyalarının tətbiqində, innovasiyalı turizm məhsulu və xidmətlərinin istehsalında, turizm sahəsində tədris prosesində və s. istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat əsərinin əsas nəzəri müddəa, nəticə və təklifləri Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, konfrans materiallarında, o cümlədən 5 məqalədə (biri xaricdə olmaqla) və 3 konfrans materialında (biri xaricdə olmaqla) dərc olunmuşdur. Tədqiqatın əsas müddəaları "Qeyri-ənənəvi turizmin turizm iqtisadiyyatının inkişafındakı rolu" (Niğde, 2020), "Azərbaycanda turizmin inkişaf perspektivlərinin proqnozu və ölkədə turizm potensialının təhlili, inkişaf perspektivləri" (Sumqayıt, 2020), "Postpandemiya dövründə turizm müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsinin nəzəri-metodoloji aspektləri" (Gəncə, 2021) adlı tezislərdə öz əksini tapmışdır. Bundan əlavə iddiaçının "Azərbaycanda müalicə turizminin inkişaf səviyyəsi və perspektivləri" (Bakı, 2021), Milli-mədəni irsin tanıdılmasında və qorunmasında turizmin rolu (Bakı,

2021), “Azərbaycanda turizmin regional inkişafının əsas mərhələləri və prioritetləri” (Bakı, 2021), “Социально-экономические основы развития туристического рынка Азербайджана” (Москва, 2021), “Azərbaycanda ekoturizmin inkişafının tənzimlənməsinin əsas istiqamətləri” (Naxçıvan, 2022) adlı məqalələri də dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Bakı Avrasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 16140 işarə, I fəsil 78533 işarə, II fəsil 64585 işarə, III fəsil 68370 işarə, nəticə 12441 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı isə 17063 işarə olmaqla ümumilikdə 263215 işarədən ibarətdir. Dissertasiya işi şəkillər, cədvəllər, qrafiklər və ədəbiyyat siyahısı istisna olmaqla 240069 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı, onun işlənilmə dərəcəsi əsaslandırılır, tədqiqatın məqsədi və vəzifələri, müdafiəyə təqdim edilən əsas müddəalar, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti öz əksini tapmışdır.

Dissertasiya işinin birinci fəsli **“Turizm sənayesinin innovasiyalı inkişafına nəzəri-metodoloji baxışlar” adlanır.** Bu fəsildə turizm sənayesi anlayışının mahiyyətinə müxtəlif yanaşmalar, münasibətlər ətraflı şərh edilmiş, turizm sənayesinin quruluşuna aid edilən fəaliyyət sahələri, turizm sənayesinin inkişafını şərtləndirən amillər müəyyən edilmişdir. Turizm sənayesinin innovasiyalı inkişafının mahiyyəti və xüsusiyyətləri səciyyələndirilmiş, innovasiyaların növləri, qrupları və işlənməsinə zəmin yaradan imkanlar, innovasiya potensialını formalaşdıran spesifik xüsusiyyətlər araşdırılmışdır.

Dissertasiyada göstərilir ki, turizm sənayesinin formalaşmasında və inkişafında rol oynayan fəaliyyət sahələri, istehsal etdikləri turizm məhsulu və xidmətlərinin əhəmiyyətliliyinə görə əsas və əlavə turizm sənayesi sahələri olmaqla iki qrupa bölünə bilər. Turizm məhsulları və xidmətlərinin tərkibində xüsusi vacib olan əsas xidmətlərin

istehsalçıları, o cümlədən yerləşmə, qidalanma, nəqliyyat və istirahət-əyləncə müəssisələri turizm sənayesinin əsas sahələrini təşkil edirlər və onun inkişafında mühüm rol oynayırlar. Turizm sənayesinin inkişafında informasiya kommunikasiya texnologiyaları sahəsi müəssisələrinin bir çox hallarda əsas turizm məhsul və xidmətləri istehsalçıarı kimi çıxış etmələrini nəzərə alaraq, bu sahə də əsas xidmət istehsalçıları sırasına aid edilir. Əlavə xidmətlərin istehsalçıları turizm məhsullarının formalaşdırılmasında, turizm tələbatlarının ödənilməsində müəyyən funksiyalar yerinə yetirirlər və əlavə sahə müəssisələri kimi səciyyələnirlər.

Dissertasiyada turizm sənayesi anlayışına baxılır, alimlərin fikirləri müqayisəli təhlil edilir. Turizm sənayesinin mahiyyətinə, xarakterik əlamətlərinə və quruluşuna görə yanaşmalar təhlil edilir. "Turizm haqqında" qanunda qeyd olunur ki, turizm sənayesi-turizm xidmətləri və turizm təlimi xidmətləri göstərən, turizm-təbliğat fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin, habelə turizm sənayesi assosiasiyalarının məcmusudur[1]. Bununla yanaşı, Rusiya Federasiyasının "Turizm fəaliyyətinin əsasları haqqında" qanununda *"turizm sənayesi mehmanxanaların və digər yerləşmə obyektlərinin, nəqliyyat vasitələrinin, sanatoriya-kurort, müalicə və istirahət müəssisələrinin, ictimai iaşə obyektlərinin, əyləncə obyektlərinin və qurğularının, təhsil, işgüzar, müalicə-istirahət, bədən tərbiyəsi, idman, turoperatorluq və turizm agentliyi fəaliyyəti ilə məşğul olan, turizm informasiya sistemlərinin operatorları, və digər təyinatlı təşkilatların məcmusudur"* anlayışı kimi tərif verilir[2]. Eyni zamanda həmin qanunda göstərilir ki, turizm fəaliyyəti göstərən ekskursiya bələdçilərinə, bələdçi-tərcüməçilərə, təlimatçı-bələdçilərə, fərdi sahibkarlara və fiziki şəxslərə "Peşəkar Gəlir Vergisi"nin xüsusi vergi rejimi tətbiq olunur.

Müəllifin fikrincə turizm sənayesi-turizm fəaliyyəti ilə məşğul olan iqtisadi fəaliyyət subyektlərinin, turistlərin tələbatlarının ödənilməsini təmin edən və turistlərdə müəyyən təəssüratların

---

[1] Turizm haqqında Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 27 dekabr 2021-ci il, № 448-VIQ.

[2] Федеральный закон от 24.11.1996 N 132-ФЗ (ред. от 05.02.2007 N 12-ФЗ) "Об основах туристской деятельности в Российской Федерации". ст. 1, s. 3.

formalaşmasında və emosiyalarının dəyişməsində mühüm rol oynayan, spesifik xidmət mühiti yaradan elementlərin məcmusudur. Hesab edilir ki, müasir dövrdə turizm fəaliyyəti ilə məşğul olan müəssisələr üçün biznes maraqları ilə yanaşı, müsbət fikir formalaşdıran xidmət mühitinin yaradılması onların strateji inkişaf perspektivlərinin daha səmərəli olmasının əsas təminatçılarından biridir. Bu baxımdan da turizm sənayesini turizm biznesi maraqlarının məqsəd kimi reallaşdırılmasına imkan verən, turizm fəaliyyəti göstərən müəssisələrin məcmusu kimi təqdim etməklə yanaşı, xidmət mədəniyyətinin səviyyəsinin göstəricisi və təqdimatçısı kimi də səciyyələndirmək onun mahiyyətini daha geniş anlamağa imkan verər.

Turizm sənayesi sahələrinin fəaliyyətinin xarakterini, prinsiplərini, məqsəd və vəzifələrini təhlil edərək belə fikir formalaşdırmaq olar ki, turizm sənayesi bir-birindən qarşılıqlı asılı olan, əlaqəli fəaliyyət göstərən subyektlərin sistemidir. Bütövlükdə turizm sənayesinin davamlı inkişafı hər bir komponentin inkişafı sayəsində təmin edilir. Buna görə də turizm sənayesinin tərkib hissələrindən birinin kifayət qədər inkişaf etməməsi ölkədə turizm sənayesinin kompleks inkişafına təsir göstərir.

“İnnovasiya”, “innovasiya fəaliyyəti”, “innovasiya potensialı” “innovasiya imkanları” anlayışının və innovasiya texnologiyalarının xarakterik əlamətlərini, xüsusiyyətlərini, digər göstəricilərinin mahiyyətini təhlil edərək ümumiləşmiş fikir formalaşdırmaq aktuallıq kəsb edir. “İnnovasiya” sözü latınca “inovatis” (“in”-doğru, “vatis”-yenilik) sözündən götürülüb və “cəmiyyətdə, mədəniyyətdə və idarəetmədə yeni metodların istifadəsinə başlamaq”, “yeniliyə doğru” anlamını verir. Digər fikrə görə “innovasiya” “innovare” kəliməsindəndir və “yenilik, yenilənmə, tərəqqi, inkişaf və fərqli bir şey etmək” mənasını verir. İngilis dilində yenilik, yeniləşmə, yeniləmə kimi mənalar verən “innovasiya” termini, nə isə yeni bir şeyin yaradılması və tətbiqi, modernləşmə, islahat, yeniləşdirmə mənasını verir.

Elmi ədəbiyyatda “innovasiya” anlayışı ilk dəfə J.Şumpeter tərəfindən istifadə edilmişdir. Şumpeterin fikrincə “innovasiya” yeni xammal, material və məhsulların, komponentlərin istifadəsini, fərqli proseslərin tətbiqini, yeni satış məkanı və bazarlarının istifadəsini, yeni istehsal kooperasiyalarının yaradılmasını, müəssisələrin və sahələrin

funksiyasında əhəmiyyətli keyfiyyət dəyişikliklərini, təşkilati-idarəetmə forma və metodlarının tətbiqini əks etdirir. Turizm sənayesində innovasiya fəaliyyəti yeni məhsulların və xidmətlərin tətbiqi, yeni istehsal üsullarının, bazarların müəyyən edilməsi və inkişafı, xammal və təchizat mənbələrinin tapılması və istifadə edilməsi, fəaliyyət sahələrində yeni bazar strukturlarının yaradılmasını nəzərdə tutur. Bunu sxematik olaraq aşağıdakı kimi təsvir edə bilərik (sxem 1).




**Sxem 1. İnnovasiyalı inkişafın istiqamətləri**

***Mənbə:*** *Sxem müəllif tərəfindən tərtib edilib.*

Turizm sənayesində innovasiya və innovativ fəaliyyət ənənəvi olaraq elmi-texniki tərəqqinin istiqaməti və elmi tədqiqatların nəticələrinə əsasən işləmələrin tətbiqi ilə yeni və fərqli məhsulların yaradılması, olanların kəmiyyət və keyfiyyətcə yenilənməsi, müasirləşdirilməsi, yeni mədəni nümunələrin yaradılması ilə bağlı proses kimi anlaşıla bilər.

Turizm sənayesində tətbiq edilən innovasiyalar məhsul və xidmət növlərindən, texnoloji proseslərin dəyişdirilməsindən asılı olaraq fərqləndirilir. Müəllif turizm sənayesinin səmərəli fəaliyyəti üçün onları - 1. sosial-idarəetmə; 2. təşkilati-idarəetmə; 3. iqtisadi; 4. hüquqi; 5. pedaqoji innovasiya qruplarına bölərək tədqiq edir.

Dissertasiyada göstərilir ki, turizm sənayesində innovasiyalar mahiyyətinə, xüsusiyyətlərinə və əlamətlərə görə qruplaşdırılması və

təsnifləşdirilməsi zəruridir. Eyni zamanda bu məsələyə elmi-nəzəri baxışları təhlil edərkən aydın olur ki, qeyd edilən qruplaşdırma və təsnifləşdirmə sistemləri müəyyən uyğunluqları və fərqlilikləri müəyyən etməyə imkan versə də, innovasiyaların müəyyən əlamətləri tam dəqiqləşdirilməyib və bu istiqamətdə çatışmazlıqların aradan qaldırılmasına ehtiyac vardır.

Dissertasiya işinin ikinci fəsli **"Azərbaycan Respublikasında turizm sənayesinin innovasiyalı inkişafının mövcud vəziyyətinin təhlili"** adlanır. Dissertasiyada qeyd edilir ki, ölkənin siyasi mövqeyinin möhkəmləndirilməsində turizm mühüm rol oynayır, neft, qida, kimya, avtomobil sənayesi ilə rəqabət aparan sahəyə çevrilib. Z.Ə. Səmədzadənin göstərdiyi kimi *"hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir"* [3] . Bu baxımdan turizm sənayesinin inkişafı məşğulluğun artmasında, əlaqədar sahələrin inkişafında, əhalinin rifahının yaxşılaşmasında, kənd əhalisinin şəhərə axınının qarşısının alınmasında, mədəniyyətlərarası inteqrasiyanın güclənməsində mühüm rol oynayır.

Bu fəsildə Azərbaycanda turizm sənayesinin ümumi inkişaf xüsusiyyətləri səciyyələndirilmiş, turizm sənayesinin inkişafında innovasiya texnologiyalarının rolu əsaslandırılmış və tətbiq edilən innovasiya modellərinin xüsusiyyətləri müqayisəli təhlil edilərək qiymətləndirilmiş, turizm sənayesində innovasiyalı inkişafın prinsipləri müəyyən edilmiş və spesifik xüsusiyyətləri sistemləşdirilmişdir. Bu göstəricilər cədvəl 1-də verilir.

Cədvəldə verilən göstəricilərin təhlili göstərir ki, 2015-2019-cu illər ərzində Azərbaycana xarici ölkələrdən gələn turistlərin sayında dinamik artım olmuş, bu illər ərzində Azərbaycana gələn xarici turistlərin orta hesabla sayı 291 min nəfər və ya 12,1% artmışdır.

Azərbaycana gələn xarici turistlərin sayı 2019-cu ildə 2015-ci illə müqayisədə 1164.2 min nəfər (58%) artmışdır. Xarici ölkələrdən gələn vətəndaşların 2019-cu ildə xarici ölkələrdən respublikamıza gələnlərin 90,4%-nin, 2021-ci ildə 58,3%-nin səfəri turizm məqsədli

[3] Səmədzadə, Z. Ə. Azərbaycan iqtisadiyyatı 100 ildə / Z. Ə. Səmədzadə. IV cild. – Bakı: - 2021. - 592 s.

olmuşdur. Azərbaycanda 2019-cu ildə turizm sənayesində artım 11,4% təşkil etmiş, Ümumdünya Turizm Təşkilatının hesablamalarına görə ölkəmiz turizm sənayesinin inkişafına görə 20 ölkə siyahısında 18-ci yerdə qərarlaşmışdır.

**Cədvəl 1.**

**2015-2022-ci illərdə Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayanların və xarici ölkələrə gedən respublika vətəndaşlarının səfərlərin məqsədinə görə bölgüsü və xərclərinin dinamikası.*(min, nəfər)***

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycana gəlmiş xarici ölkə vətəndaşlarının sayı | 2006.2 | 2248.8 | 2696.7 | 2849.6 | 3170.4 | 795.7 | 791.8 | 1602,3 |
| turizm məqsədilə gələnlər | 1921.9 | 2044.7 | 2454.0 | 2605.3 | 2863.5 | 519.4 | 461.7 | 1058,1 |
| digər məqsədlərlə gələnlər | 84.3 | 204.1 | 242.7 | 244.3 | 306.9 | 276.3 | 330.1 | 544,2 |
| Xarici ölkələrə getmiş Azərbaycan vətəndaşlarının cəmi sayı | 4095.8 | 4281.9 | 4108.9 | 4908.1 | 5567.7 | 1164.6 | 974,5 | 1489,5 |
| turizm məqsədilə gedənlər | 3256.2 | 3592.1 | 3447.4 | 4096.7 | 4347.3 | 746.6 | 557.9 | 918,1 |
| digər məqsədlə gedənlər | 839.6 | 689.8 | 661.5 | 811.4 | 1220.4 | 418.0 | 416.6 | 571,4 |
| Turizm məqsədilə Azərbaycana gələn turistlərin turizm üçün çəkdiyi xərclər, milyon manat | 11324 | 1411.3 | 2285.3 | 2661.6 | 2971.4 | 414.7 | 492.6 | 1340,2 |
| Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının turizm üçün çəkdiyi xərclər, milyon manat | 1816.9 | 1970.3 | 1678.9 | 2387.4 | 2407.6 | 412.5 | 510.3 | 924,8 |

***Mənbə:*** *Cədvəl www.stat.gov.az/ məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

2022-ci ildə Azərbaycana turizm məqsədilə gələnlərin sayı 2015-ci illə müqayisədə 404,5 min nəfər və ya 1,25 dəfə azalmışdır. 2015-2022-ci illərdə orta illik azalma 232,3 min nəfər və yaxud 19,4% olmuşdur. 2015-2022-ci illər ərzində Azərbaycana turizm məqsədilə gələnlərin orta sayı 2020,18 min nəfər təşkil etmişdir. Həmin dövrdə ölkəmizdə turizm idxalı və ixracı üzrə dövriyyə göstəriciləri 1 saylı qrafikdə əks olunmuşdur.




| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| turizm xidmətləri üzrə idxal | 2,9 | 3 | 2,6 | 2,5 | 2,7 | 2,3 | 1,7 | 1,3 | 0,6 | 0,9 |
| turizm xidmətləri üzrə ixrac | 2,4 | 2,4 | 2,3 | 2,7 | 3 | 2,6 | 1,8 | 1,6 | 0,3 | 0,4 |
| Qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi , cəmi | 5,3 | 5,4 | 4,9 | 5,2 | 5,7 | 4,9 | 3,5 | 2,9 | 0,9 | 1,3 |

**Qrafik 1. 2013-2022-ci ildə Azərbaycan Respublikasında qarşılıqlı turizm xidmətlərinin dövriyyəsinin dinamikası, (*milyard dollar*).**
**Mənbə:** http/www.cbar.az/ *məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Təhlil nəticəsində müəyyən edilir ki, 2022-ci ildə qarşılıqlı turizm xidmətləri dövriyyəsinin həcmi 1,3 milyard dollar, xaricdən Azərbaycana gələn turistlərə göstərilən xidmətlərin məbləği (turizm xidmətləri üzrə ixrac) 0,4 milyard dollar, Azərbaycandan xaricə gedən turistlərə göstərilən xidmətlərin məbləği (turizm xidmətləri üzrə idxal) 0,9 milyard dollar təşkil edir. 2021-ci illə müqayisədə 2022-ci ildə qarşılıqlı turizm xidmətləri dövriyyəsi 23% , turizm xidmətləri üzrə ixrac 14,3%, turizm xidmətləri üzrə idxal 7,6% artmışdır.

2014-2022-ci illərdə Azərbaycanda turizm üçün xarakterik olan sahələr üzrə əsas göstəricilər cədvəl 2-dəki kimi olmuşdur.

**Cədvəl 2.**

**2014-2022-ci illərdə Azərbaycanda turizm üçün xarakterik olan sahələr üzrə əsas göstəricilər**

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Turizm üçün xarakterik olan sahələrdə çalışan işçilərin sayı, (nəfər) | 41886 | 49449 | 43477 | 46837 | 53222 | 58972 | 49019 | 53717 | 55321 |
| Turizm üçün xarakterik olan sahələr üzrə yaradılmiş əlavə dəyərin həcmi,(milyon manat) | 2404,2 | 2437,3 | 2746,1 | 3151,0 | 3464,3 | 3704,9 | 1386,7 | 2062,6 | 2235,4 |
| Turizm üçün xarakterik olan sahələr üzrə yaradılan əlavə dəyərin ölkənin ÜDM-də xüsusi çəkisi (%-lə) | 4,1 | 4,5 | 4,3 | 4,5 | 4,3 | 4,5 | 1,9 | 2,2 | 2,4 |
| Turizm üçün xarakterik olan sahələrə qoyu-lan investisi-yaların həcmi, (milyon manat) | 2204,0 | 1063,9 | 363,0 | 267,3 | 229,7 | 133,7 | 79,3 | 242,4 | 304,8 |

***Mənbə**: http/www.stat.gov.az [11, s. 19]*

Göründüyü kimi, ölkənin turizm üçün xarakterik olan sahələrdə çalışan işçilərin sayının dinamikasında əvvəlki illə müqayisədə 2016-cı ildə devalvasiya səbəbi ilə 12,1% və 2020-ci ildə pandemiya

səbəbi ilə 16,9% azalma müşahidə edilmiş, qalan illərdə artım qeydə alınmışdır. 2022-ci ildə turizm üçün xarakterik olan sahələrdə çalışan işçilərin sayı 2014-cü illə müqayisədə 13345 nəfər (31,1%), 2020-ci illə müqayisədə isə 6302 nəfər və ya 10,7% artmışdır.

Dissertasiyada ekonometrik metodlardan istifadə etməklə turizm üçün xarakterik sahələr üzrə yaradılmış ümumi əlavə dəyərin həcmi arasında əlaqə olduğu müəyyən edilmişdir. Ölkəyə gələn vətəndaşların və ölkədən gedən vətəndaşların sayı arasında korrelyasiya əmsalı (əlaqə sıxlığı 0,827), mehmanxana (hotel) və obyektlərin gəlirlərinin məbləği (əlaqənin sıxlığı 0,938) və hava nəqliyyatının sərnişinlərinin dövriyyəsi (əlaqənin sıxlığı 0,942) arasında güclü əlaqə vardır.

Müasir inkişaf meyillərinə müvafiq olaraq turizm sənayesinin inkişafında innovasiyalı texnologiyaların daha geniş tətbiqi və bu istiqamətdə tədbirlərin davamlı olaraq həyata keçirilməsi zəruriləşir.

Turizm sənayesinin inkişafında innovasiya texnologiyalarının tərtibi və istifadəsi, bu sahənin innovasiyalı inkişafının əsas mənbəyidir. İnnovasiyaların inkişafda rolunun artırılması üçün onların tipinin və növünün seçilməsi, məqsədlərinin dəqiqləşdirilməsi, xüsusiyyətlərinin öyrənilməsi və tətbiqini şərtləndirən amillərin müəyyənləşdirilməsi və sistemləşdirilməsi vacib amillərdir. Eyni zamanda dünyada tətbiq edilən əsas innovasiya modellərinin (Avropa, ABŞ, Yapon), həmçinin müxtəlif ölkələrin (Tailand, Sinqapur, Çin və s.) milli innnovasiya modellərinin tətbiqi imkanlarının müəyyən edilməsi əhəmiyyətli məsələdir. Hesab edirik ki, turizm sənayesində mövcud modellərin müsbət tərəflərinin kombinə edilmiş formada tətbiqi və yerli şəraitə uyğunlaşdırılması, bu sahədə sürətli innovasiyalı inkişafın təmin olunmasına imkan verər. Bu prinsipin ölkəmizdə turizm sənayesində tətbiqi, inkişafda səmərəli nəticələr əldə edilməsinə zəmin yaradar.

İnnovasiyalı inkişafın təmin olunmasında mühüm vəzifələrdən biri prinsiplərin müəyyən edilməsidir. Prinsiplərin müəyyən edilməsi prosesin tərtibi mərhələlərini (innovasiya ideyasının yaranması, tərtibi, tətbiqi, turizm sənayesində yayılması, fəaliyyət sahəsində möhkəmlənməsi və ya tətbiqinin dayanması, yenisi ilə əvəzlənməsi), innovasiyaların tətbiq sahəsində uzunömürlülüyünün təmini və bu

mərhələlərdə tədbirlərin məntiqi ardıcıllıqla, sistemli həyata keçirilməsi, tətbiq edimiş texnologiyanın yaratdığı effektlərin qiymətləndirilməsi və s. məsələlərə əsaslanır. Ona görə turizm sənayesində innovasiyalı inkişafa dair fəlaiyyətin səmərəli təşkili və genişləndirilməsi üçün prinsipləri müəyyən edərkən ona əsaslanmaq lazımdır ki, innovasiyaların yaratdığı nəticələr turizm sənayesi və bütövlükdə cəmiyyət üçün iqtisadi, sosial-mədəni və s. baxımdan daha səmərəli olsun və onların tətbiqi həm də sahənin innovasiyalı inkişafının hərəkətverici qüvvələri sırasında fərqliliyi, əhəmiyyətliliyi və mühümlüyü ilə seçilsin.

Dissertasiyanın üçüncü fəsli "**Azərbaycanda turizm sənayesinin innovativ inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri**" başlığı ilə verilmişdir. Burada turizm sənayesinin innovasiyalı inkişafı strategiyasının formalaşdırılması prinsipləri müəyyən edilmiş, Azərbaycanda turizm sənayesinin innovasiyalı inkişafı istiqamətləri qiymətləndirilmiş və turizm sənayesində innovasiyalı inkişaf texnologiyalarının tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi üzrə tədbirlər işlənib, hazırlanmışdır.

Dissertasiyada qeyd edilir ki, adətən turizm sənayesində müntəzəm, inqilabi, struktur, araşdırma, qanunverici, texnoloji, müştəri, xərc və qiymət, işçi personal, tədarük məqsədli, asılı, mənimsənilmiş, imitasiya, hücümçü, təsadüfi və s. strategiyalardan geniş istifadə edilir. Turizm sənayesində innovativ strategiyalar yeni məhsulun yaradılmasına və ya mövcud məhsulların, ilkin və əlavə xidmətlərin təkmilləşdirilməsinə, yeni turizm xidmətləri bazarlarının yaradılması və inkişaf etdirilməsinə, idarəetmə və marketinq fəaliyyətinin tətbiqinə, yeni xammal mənbələrinin istifadəsinə, bir sözlə sahənin innovasiyalı inkişafına xidmət edir. Bu təcrübədən çıxış edərək Azərbaycanda milli turizm sənayesinin innovasiyalı inkişaf strategiyasının formalaşmasında qeyd edilən strategiyaların müəyyən aspektlərinin nəzərə alınması məqbul hesab edilir.

Ölkəmizdə turizm sənayesinin innovasiyalı inkişafına nail olmaq üçün məsələyə konseptual yanaşmanın təmini vacib amil hesab edilir. Bu yanaşma innovasiya fəaliyyətini, qloballaşmanın yaratdığı şərtləri və inkişafda davamlılığın təmin edilməsini nəzərdə tutmalıdır ki, bu da müəyyən prinsiplərə söykənməlidir. Bu prinsiplərdən biri, əsas

təkanverici element hesab edilir və innovasiyalı inkişafa texnoloji əsasın yaranmasını, inkişafın dinamik xarakter almasını nəzərdə tutur. Digər prinsip fəaliyyətin məqsədli bazarın innovasiyalı məhsul və xidmətlərin istehlakı prosesinin rreallaşdırılmasına cəlb edilməsidir və bu, daha əhəmiyyətli hesab edilir, çünki bu prosesdə məhsul və xidmətlərin bazar münasibətləri şəraitində inkişafı, yaşama müddətinin uzadılması və gəlirliliyin təmin edilməsi məsələlərini əhatə edir.

Mühüm prinsiplərdən biri, turizm sənayesində innovasiya fəaliyyətinin inteqrasiya xarakterinin təmin edilməsinə yönəlmiş tədbirlərin prioritetləşdirilməsidir. Bu prinsip inkişafın maliyyə-iqtisadi, maddi-texniki, texnoloji, yaradıcı-təşəbbüskar kadr təminatının yaxşılaşdırılmasını, korporativ innovasiya mədəniyyətinin, innovasiya komandasının yaradılmasını, yeni turizm bazarlarının mənimsənilməsini, qlobal turizm bazarlarında iştirakın genişləndirilməsini, turizm sənayesi müəssisələrinin innovativ fəaliyyətinə davamlı dəstək sisteminin yaradılmasını və sistemin səmərəli idarə edilməsini əhatə edə bilər. Fikrimizcə, bunlar dövlət-özəl tərəfdaşlıq mexanizminin təkmil modelinin tətbiqini, turizm sahəsində sahibkarlıq subyektlərinin təcrübə mübadiləsi və dəstək tədbirlərində əməkdaşlıqlarının genişləndirilməsini, milli turizm sənayesinin sistemli innovasiyalı inkişafının təmin edilməsi siyasətinin və strategiyasının işlənməsini və davamlı təkmilləşdirilməsini, dövlət dəstək mexanimlərinin, tərəfdaşlıq və təcrübə mübadiləsinin forma və prinsiplərinin davamlı yenilənməsini, bir sözlə innovasiyalı inkişafla bağlı strategiyanın reallaşdırılması sahəsində lazımi tədbirlərin görülməsini əsas məqsəd kimi qarşıya qoyur.

Turizm sənayesi sahələrində innovasiyalı inkişafın təmini və sürətləndirilməsi məqsədilə tətbiq edilən texnologiyalar fəaliyyət sahələrinin xarakterindən asılı olaraq müxtəlif forma və tipdə olur. Yerləşmə müəssisələrində tətbiq edilən innovasiya texnologiyaları daha çox hüquqi, maddi-texniki, sosial, idarəetmə, satışının təşkili və satış həcminin artırılması bə digər prosesləri əhatə edir.

Qidalanma müəssisələrində kifayət qədər geniş çeşidli innovativ texnolgiyalar tətbiq edilir ki, bunlar əsasən qida məhsullarının

istehsalında keyfiyyətin təmininə, xidmət formalarının və xidmət mühitinin yaxşılandırılmasında ciddi dəyişikliklərin əldə edilməsinə əsas yaradır. Turistlər qidalanma müəssisələrində yemək masalarının tərtibi, süfrənin estetik görünüşü, yemək alətlərinin düzülüşünü, xörək və qəlyənaltıların xammallarının fərqli üsulla emalı xüsusiyyətlərini hiss etməkdə maraqlıdırlar. Bu maraqlara cavab vermək və tələbatları ödəmək məqsədilə hesab edirik ki, tətbiq edilən innovasiyalara masalarda ofisiantla çevik əlaqə saxlamaq üçün məsafədən idarə edilən düymələr, xörəklərin çeşidi və digər göstəriciləri barədə məlumat almaq üçün QR kodlar, interaktiv menyu, Wi-Fi, işçilərin fəaliyyətinə nəzarət sistemi, personalın operativ əlaqə qurması üçün telsizlərdən istifadə, sifariş verilmiş yeməklərin planşetdən kodlaşdırılması və kodla nəqledici lentdən seçilməsi, rəqəmsal tablolar, olduqca vacibdir. Fikrimizcə göstərilənlərə həm də onlayn sifariş sistemi, onlayn çatdırılma, kontaktsız ödəniş, onlayn menyular, ödəniş sistemləri, xidmətlərin icrasının təminat sisteminə və s. mənbələrə giriş imkanı verən QR kodları, xammal təchizatının idarə edilməsi sistemi, qida məhsulları ehtiyatlarının yaradılmasını nəzərdə tutan proqram təminatı, ventilyasiya, mikriqlim və soyutma texnologiyaları, kadrların idarə edilməsi, rotasiyası, seçilməsi və inkişafı məqsədilə tətbiq edilən proses innovasiyaları, müəssisələrdə müxtəlif işıq və səs effektləri ilə müşayiət edilən musuqi proqramları və s. texnologiyalar aid edilə bilər.

Turistlərə göstərilən nəqliyyat xidmətlərində tətbiq edilən innovasiyalara interaktiv texnologiyalar, virtual bələdçilər, video və audio nümayiş sistemləri ilə əlaqə vasitələri, peyk rabitəsi, müxtəlif qidalanma, əyləncə xidmətləri, yüksək komfortluluq səviyyəsi və texniki-texnoloji göstəriciləri ilə seçilən xüsusi nəqliyyat vasitələrindən istifadə və s. aid edilir.

Əyləncə müəssisələri turizm sənayesinin mühüm sahələrindən biri kimi, turistlərin əyləncəyə olan tələbatlarının ödənilməsi prosesində müxtəlif innovasiyalardan istifadə edirlər. Əyləncə tədbirlərində səs-işıq effektləri, genişlənmiş reallıq, virtual reallıq, qarışıq realıq və digərləri innovasiyalara misal ola bilər.

Turizm sənayesində innovasiyaların geniş tətbiq edildiyi sahələrdən biri də ekskursiyalardır. Yeni forma və məzmunda

ekskursiya mövzularının, mətnlərinin tərtibi, ağıllı, audio, kvest virtual, hekayə, onlayn, 3D və s. ekskursiya formalarının təşkili və aparılması, həmçinin ekskursiyaların təşkili və aparılmasında innovativ metod, avadanlıq və alətlərdən istifadə, ekskursiya bazarının tədqiqində yeni marketinq üsullarının istifadəsi və s. əsas innovasiyalı fəaliyyət istiqamətləri hesab edilir.

Beləliklə, innovasiya texnologiyalarının tərtibi və istifadəsi indiki dövrdə inkişafın əsas elementlərindən biridir və turizmin davamlı inkişafı bir çox hallarda innovasiya fəaliyyətinin səmərəli təşkili və nəticələrinin məqsədyönlü tətbiqindən asılı olur və ona görə də innovasiyaların tərtibi və tətbiqi turizm müəssisəsi üçün əsas prioritetlərdən birincisi olmalıdır. Hesab edirik ki, Azərbaycanda milli iqtisadi sistemin prioritet sahələrindən olan turizm sənayesinin innovasiyalı inkişafı sahəsində məqsədlərə nail olmaq üçün bu istiqamətdə sistemli fəaliyyət, innovasiya texnologiyalarının işlənməsi üçün ideyaların və təşəbbüslərin dəstəklənməsi, bu prosesə dövlət dəstəyinin gücləndirilməsi, milli turizm siyasətinin və strategiyasının formalaşdırılması və onların reallaşdırılması prosesində innovasiya fəaliyyəti diqqət mərkəzində olmalı, fəaliyyət mexanizminin davamlı təkmilləşdirilməsi həyata keçirilməlidir. Bu prinsiplər Azərbaycanda milli turizm sənayesinin innovasiyalı inkişafının və qlobal turizm bazarında inteqrasiyasının təminində əsas amil kimi dəyərləndirilməlidir. Ölkəmizin turizm sənayesinin gələcək inkişafı ilə bağlı strateji məqsədlərin reallaşdırılması, ümumi inkişafda turizm sənayesinin rolunun artırılması, innovasiyalı inkişafın genişləndirilməsini, innovasiyalı işləmələrin tətbiqi və səmərəliliyinin artırılması mexanizmlərinin təkmilləşdirilməsini ön plana çəkməyi zəruriləşdirir.

Bununla əlaqədar dissertasiyada göstərilir ki, ölkəmizdə fəaliyyət göstərən turizm sənayesi müəssisələri innovasiyalı inkişafın genişləndirilməsi, inovativ təşəbbüslərin dəstəklənməsi, fəaliyyətin maliyyə təminatının yaxşılaşdırılması, prosesə özəl və dövlət turizm idarəetmə strukturlarının etibarlı dəstək mexanizmlərinin yaradılması, mövcu imkan, potensial və ehtiyatların innovasiyaların işlənməsinə cəlb edilməsi və səmərəli istifadəsi vacib amillərdən ola bilər.Bununla yanaşı, həm də beynəlxalq təcrübədən və inkişaf etmiş

ölkələrdə tətbiq edilən innovasiyalı inkişaf modellərdən yararlanmaq və virtual, rəqəmsal innovasiyaların geniş tətbiqinə, eyni zamanda milli turizm sənayesinin inkişaf meyillərinin və xüsusiyyətlərinin nəzərə alınması şərtilə anoloji inkişaf modellərinin yaradılması və tətbiqini əsas vəzifəlrindən biri kimi müəyyən etməli, bu istiqamətdə səyləri birləşdirməli, sahədaxili və sahələrarası inteqrativ fəaliyyət mexanizmlərini təkmilləşdirməklə bu sahədə davamlı innovasiyalı inkişafa nail olmalıdırlar.

## NƏTİCƏ

Müasir dövrdə yeni biliklərə və intellektə əsaslanan innovasiya fəaliyyəti bütün fəaliyyət sahələrində iqtisadi inkişafın mühüm vəzifələrindən biri olmaqla praktiki fayda verir, gəlir gətirir. Turizm sənayesində innovasiyalı inkişaf daha perspektivli və faydalı hesab edilir. Bu innovasiyaların davametmə müddəti və faydaları digər sahələrdə tətbiq edilən innovasiyalardan daha çoxdur. Ona görə innovasiyalı fəaliyyətin genişləndirilməsi və inkişaf mexanizmlərinin təkmilləşdirilməsi qlobal, milli, regional və yerli, sosial-iqtisadi problemlərin həllində və ümumi iqtisadi inkişafın təmin edilməsində mühüm rol oynayan turizm sənayesində daha böyük aktuallıq kəsb edir. Azərbaycanda turizm sənayesinin innovasiyalı inkişaf mexanizmlərinin təkmilləşdirilməsi sahəsində aparılmış və yekunlaşdırılmış tədqiqat işindən çıxış edərək, aşağıdakı nəticələrə gəlməyi, təklif və tövsiyələri qeyd etməyi məqsədəuyğun hesab edirik.

1. Turizm sənayesinin innovasiyalı inkişafında maliyyə, kadr, texnologiya təminatı, turizm idarəetmə institutları, elmi-tədqiqat və təhsil müəssisələrinin bu sahənin inkişafında mühüm rolu vardır. Turizmin innovasiyalı inkişafına bir çox xarici və daxili amillərin təsiri də nəzərə alınmalıdır. Turizm sənayesinin daxili quruluşu, xidmət istehsalçıları arasında münasibətlərin tənzimlənməsi, maraqların uzlaşdırılması və s. amilləri nəzərə almaqla, innovasiyalar üçün əlverişli mühit və inkişafa əlavə təşviq yaratmaq olar.

2. İnnovasiyaların qruplaşdırılması həm də onların işlənməsini təmin edən mənbələrin xarakteri ilə də bağlıdır. Ona görə hesab edirik ki, qruplaşdırma prosesində bu amilin də nəzərə alınmasına

ehtiyac var. İnnovasiyaların yaradılması mənbələrinin zənginliyi və genişliyi, müxtəlif xarakterli əlavə innovasiya qruplarının meydana çıxmasını şərtləndirir və bu innovasiyalı inkişafın istiqamətlərinin daha da genişləndirilməsi üçün əlavə potensial hesab edilə bilər.

3. Turizmin innovasiyalı inkişafınnın səviyyəsini təhlil etmək üçün tam və keyfiyyətli informasiyaya malik olmaq lazımdır. Turizmin innovasiyalı inkişafının əsas göstəricisi bir çox amillərdən asılı olan turist axınına da təsir edir. Lakin ölkəmizdə müvafiq orqanlar turizm sənayesində innovasiya fəaliyyətinin səviyyəsi, tətbiq edilən innovasiya texnologiyalarının statistikasını təqdim etmir. Gələcəkdə turizm sənayesində tətbiq edilən texnologiyalar və onların tətbiqinin yaratdığı effektlər, gəlirliliyin səviyyəsinə təsiri, turist axınlarını təşviq etməsi, sosial-iqtisadi problemlərin həllində rolu və s. göstəricilər barədə məlumatların statistikasının aparılması və nəticələrin ümumi turizm statistikasında əks olunması mexanizminin işlənməsinə ehtiyac duyulur.

4. Turizm sənayesini inkişaf etdirmək üçün innovasiya texnologiyaları olmadan tərəqqiyə nail olmaq mümkün deyildir. Turizm sənayesində innovasiya anlayışına yanaşmalar təhlil edilir, onun məzmunu və inkişaf xüsusiyyətləri, meylləri ümumiləşdirilir, konseptual əsasları izah edilir. Turizm sənayesində fərqli xüsusiyyətləri nəzərə almaqla innovasiyalara yaradıcılıq, problemin həllinə səmərəli yanaşma və məsələyə yeni təfəkkür tərzi prizmasından sosial-iqtisadi aspektdən yanaşmağı təklif edirik.

5. Turizm sənayesində innovasiyaların növləri məqsədlərə, xarakterik əlamətlərə görə qruplara ayrılaraq təsnifatlaşdırılır. Bunlar: 1. innovasiya növlərinə görə; 2. innovasiyaların icra mexanizminə görə; 3. innovasiya potensialına görə; 4. innovasiya prosesinin xüsusiyyətlərinə görə; 5. nəticələrin səmərəlilik səviyyəsinə görə təsnifatlaşdırılır. Göstərilənlərlə yanaşı, elmi yanaşmalara əsasən turizmdə innovasiyalar: 1. sosial-idarəetmə innovasiyalara; 2. təşkilati idarəetmə innovasiyalara; 3. iqtisadi innovasiyalara; 4. hüquqi innovasiyalara; 5. pedoqoji innovasiyalara ayrılaraq tədqiq edilir.

6. Turizm sənayesinin inkişafı həm də onunla bağlıdır ki, texnoloji yeniliklərlə yanaşı həm də innovasiya fəaliyyəti ilə əlaqədar mükəmməl inkişaf strategiyası olsun. Həm də strategiyada, sosial-

iqtisadi inkişafa dair Milli Prioritetlərdə nəzərdə tutulduğu kimi müasir, texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət formalaşdırmaq üçün qlobal turizm bazasına inteqrasiya, milli turizm brendinin yaradaılması və təbliği, turizmin qanunvericilik bazasının təkmilləşdirilməsi, peşəkar mütəxəssislərin və xidmət personalının hazırlanması, bilik və bacarıqların artırılması zəruri hesab edilir.

7. Milli turizm sənayesinin innovasiyalı inkişaf strategiyasının formalaşdırılmasını, tətbiqini, inkişafını və daim təkmilləşdirilməsini əsas vəzifələrdən biri hesab edirik. Ona görə innovasiya strategiyasının formalaşdırılması zamanı inkişaf etmiş ölkələrdə tətbiq edilən niş (əməkdaşlıq), müntəzəm, inqilabi və struktur, araşdırma, qanunverici, texnoloji, müştəri, xərc və qiymət, işçi personal, asılı, mənimsənilmiş, imitasiya, hücumçu, təsadüfi, tədarük məqsədli strategiyalardan istifadə edilməsini məqsədəuyğun hesab edirik.

8. İnnovasiyalı inkişafın Avropa, ABŞ, Yaponiya modelləri, habelə bir çox ölkələrin fərdi milli innovasiya modelləri turizm sənayesində də istifadə edilən modellərin əsas bazasını təşkil edir. Hesab edirik ki, ölkəmizin turizm sənayesində mövcud modellərin müsbət tərəflərinin kombinə edilmiiş formada tətbiqi və yerli şəraitə uyğunlaşdırılması bu sahədə sürətli innovasiyalı inkişafın təmin olunmasına imkan verər.

9. İşğaldan azad edilmiş regionlarda bərpa quruculuq işlərinin gedişində ərazilərin turizmin innovasiyalı inkişafına təkan verən mənbələrinin, potensialının və imkanlarının gələcəkdə səmərəli istifadəsinə zəmin yaradan infrastruktur, texniki-texnoloji, idarəetmə və s. elementlərinin yaradılması nəzərə alınmalıdır.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Qeyri-ənənəvi turizmin turizm iqtisadiyyatının inkişafındakı rolu // VII Beynəlxalq türk dünyası araşdırmaları simpoziumu. II cild. – Türkiye, – 20 – 22 Oktyabr, -2020, -s. 377-391.

2. Azərbaycanda turizmin inkişaf perspektivlərinin proqnozu və ölkədə turizm potensialının təhlili, inkişaf perspektivləri // "Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu" mövzusunda respublika elmi konfransı. – Sumqayıt, - 22-23 Oktyabr, -2020, -s. 25-29.

3. Azərbaycanda turizmin regional inkişafının əsas mərhələləri və prioritetləri // – Bakı: "Kooperasiya" elmi-praktik jurnal. №2(61). – 2021, – s.104-110.

4. Milli-mədəni irsin tanıdılmasında və qorunmasında turizmin rolu // – Bakı: "Tikintinin iqtisadiyyatı və menecment" elmi-prakrik jurnal. №4(17). – 2021, – s.174-179.

5. Azərbaycanda müalicə turizminin inkişaf səviyyəsi və perspektivləri // – Bakı: "Kooperasiya" elmi-praktik jurnal. №4(63). – 2021, – s.170-177.

6. Социально-экономические основы развития туристического рынка Азербайджана // – Москва: "Финансовая экономика" Всероссийский научно-аналитический журнал. №10 ч.2. – 2021, – с.125-128.

7. Postpandemiya dövründə turizm müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsinin nəzəri-metodoloji aspektləri // "Pandemiya dövründə gənclərin tədqiqat problemləri" elmi-praktik respublika konfransı. – Gəncə: Azərbaycan Texnologiya Universiteti, – 2021, – s. 35 – 37.

8. Azərbaycanda ekoturizmin inkişafının tənzimlənməsinin əsas istiqamətləri // – Naxçıvan: Elmi əsərlər jurnalı. №1(2). – 2022, – s.83-90.



Dissertasiyanın müdafiəsi 12 iyun 2024-cü il tarixdə saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 08.05.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 44453 işarə

Tiraj: 100